**Hüseynova S.U.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.100-114**
**UOT: 34: 341; 343**

# Beynəlxalq hüquq normalarında və milli qanunvericilik sistemində insan alveri qurbanlarının müdafiəsi

**Xülasə:** İnsan alveri ilə mübarizə sahəsində son illər qəbul olunmuş çoxsaylı beynəlxalq sənədlərin təhlili və müvafiq beynəlxalq təcrübənin ümumiləşdirilməsi beynəlxalq hüquq elmi qarşısında dayanan vacib məsələlərdən biridir.

Beynəlxalq və milli hüquqi aktlarda insan alveri ilə mübarizəni təmin edən proqramlar və konsepsiyalar insan alverinin qarşısının alınması, insan alverindən zərər çəkənlərə kömək göstərilməsi, insan alveri ilə bağlı kriminal əməllərin açılması və cinayətkarların cəzalandırılması kimi əsas fəaliyyət istiqamətini ehtiva edir. Hər bir dövlət öz ölkəsində insan alveri ilə mübarizəni səmərəli təşkil edərkən beynəlxalq təcrübədən və beynəlxalq hüquq normalarından bəhrələnməlidir. Yalnız belə olduqda bəşəriyyət üçün artıq böyük təhlükəyə çevrilmiş insan alveri ilə səmərəli mübarizə aparmaq mümükündür.

Bütövlükdə, insan alverinin cinayət hüquqi tənzimlənməsi məsələsinin beynəlxalq və milli hüquqi aspektləri dövrün tələbi kimi çıxış edir.

**Açar sözləri:** beynəlxalq hüquq normaları; milli qanunvericilik sistemi; insan alveri; qurbanların müdafiəsi; insan hüquqları; normativ hüquqi aktlar; sosial reabilitasiya; qurbanların repatriasiyası; qurbanların reinteqrasiyası.

İnsan alveri ilə bağlı kriminal fəaliyyət cinayətlərin müəyyən kompleksi ilə müşayiət olunan çoxaspektli və mürəkkəb sosial-hüquqi hadisədir. Bu cinayətlər kompleksinə bilavasitə insan alveri, məcburi əməkdən istifadə, seksual istismar, fahişəliyə cəlb etmə və məcbur etmə, adam oğurluğu və adamları qanunsuz saxlama, qanunsuz azadlıqdan məhrum etmə, dövlət sərhədlərini qanunsuz keçmə, xarici ölkələrdə qanunsuz saxlanılma, sənədlərin saxtalaşdırılması və s. əməllərləçox vaxt məcmu şəklində, mütəşəkkil qaydada törədilir. Bu fenomenin təhlükəli nəticələri və miqyası Azərbaycanda milli və beynəlxalq hüquqi vasitələrlə effektli mübarizənin aparılmasını tələb edir.

İnsan alveri həm milli, həm də transmilli xarakter daşıyır. İnsan alveri, eyni zamanda, fərdi səviyyədə təsirə malikdir və qurbanların sağlamlığına və rifahına təsir göstərir.

İnsan alveri cinayətinin ictimai təhlükəliliyi ondan ibarətdir ki, CM-in 144-1-ci maddəsinin dispoziyasında nəzərdə tutulan ictimai təhlükəli əməllərdən hər hansı birinin törədilməsi beynəlxalq-hüquqi aktlarla, eləcə də Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunan qul əməyinin, qul ticarətinin və insanın şəxsi azadlığına qəsd edən sair qanunsuz əməllərin yayılmasına və insanın alqı-satqı obyekti olmasını pisləyən ictimai-mənəvi normaların pozulmasına səbəb olur [1, s. 552].

İlk növbədə qeyd edək ki, beynəlxalq hüquqi sənədlərdə və milli qanunvericilikdə insan alverinin qurbanlarının anlayışları nəzərdə tutulur. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin

♦ **Hüseynova Sevinc Usub qızı -** hüquq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyası Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Elektron xidmətlər şöbəsinin müdiri (Azərbaycan). E-mail: sevinchuseyn70@gmail.com

1985-ci il 29 noyabr tarixində qəbul etdiyi "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamənin 1-ci maddəsində qurban anlayışı belə ifadə olunur: "Qurbanlar" Üzv Ölkələrdə qüvvədə olan, vəzifədən sui-istifadə etməyi qadağan edən qanunlar da daxil olmaqla, cinayət qanunlarının pozulması və ya hərəkət və hərəkətsizliyin edilməsi nəticəsində fiziki və mənəvi zərərlər də daxil olmaqla, emosional iztirab, maddi zərər, əsas hüquqların əhəmiyyətli dərəcədə pozulması kimi zərərlərə fərdi və ya kütləvi şəkildə məruz qalmış şəxslərdir.

Bu Bəyannaməyə əsasən, əməli törətmiş şəxsin müəyyənləşdirilməsi, həbs olunması, cinayət məsuliyyətinə cəlb edilməsi və ya onun məhkum edilməsi halının baş verib-verməməsinə baxmayaraq və əməli törədən şəxs və qurban arasında ailə münasibətlərinin olub-olmamasından asılı olmayaraq, şəxs qurban hesab edilə bilər. "Qurban" anlayışı həmçinin, lazım gəldikdə, qurbanın ailə üzvləri və ya birbaşa qurbanın himayəsində olan şəxslər və çətin vəziyyətdə olan qurbanlara kömək etmək və ya qurbana çevrilmənin qarşısını almaq üçün müdaxilə zamanı zərər çəkmiş şəxsləri də əhatə edir [17].

İnsan hüquqları yanaşmasında insan alveri qurbanlarının erkən müəyyənləşdirilməsi və onlara yardım tələb olunur. Müəyyənləşdirmə prosesinin məqsədi, beynəlxalq hüquqi sənədlərdə təsbit edilmiş insan alveri anlayışlarına uyğun olaraq, şəxsin potensial olaraq insan alverinin qurbanı olub-olmamasını müəyyənləşdirməkdən ibarətdir. Qurbanların istismar vəziyyətindən çıxarılması, təxirəsalınmaz fiziki və psixoloji ehtiyaclarının təmin edilməsi və müvafiq müdafiə tədbirlərinin həyata keçirilməsi üçün onların müəyyənləşdirilməsi vacibdir.

BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolunda (Ali Məclisin 2000-ci il 15 noyabr tarixli, 55/25 saylı Qətnaməsi ilə qəbul edilmişdir) insan alveri qurbanının anlayışı verilmir. Amma İnsan alveri qurbanlarına yardım və onların müdafiəsi və İnsan alveri qurbanlarının repatriasiyası (qaytarılması) (maddə 8) bağlı önəmli müddəalar var:

Hər bir İştirakçı dövlət lazım gəldikdə və onun öz daxili qanunvericiliyinin imkan verdiyi həcmdə, o cümlədən, bundan başqa, bu cür alverə aid olan icraatın məxfiliyini təmin etməklə, insan alveri qurbanlarının şəxsi həyatının və şəxsiyyətinin müdafiəsini təmin edir.

Hər bir İştirakçı dövlət insan alveri qurbanlarının fiziki, psixoloji və sosial reabilitasiyasının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi mümkünlüyünü, o cümlədən, lazım gəldikdə, qeyri-hökumət təşkilatları, digər müvafiq təşkilatlar və vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlıq edərək və xüsusilə də: a) lazımi sığınacağın verilməsini; b) insan alveri qurbanlarına aydın olan dildə konsultativ yardımın və məlumatın, xüsusən də onların hüquqlarına dair yardımın və məlumatın təqdim edilməsini; c) tibbi, psixoloji və maddi yardımın göstərilməsini və d) məşğulluq, təhsil və mütəxəssis hazırlığı sahəsində imkanların verilməsini nəzərdə tutan tədbirlərin həyata keçirilməsi mümkünlüyünü müzakirə edir [5].

İnsan alveri problemi 1980-ci illərdən başlayaraq Avropa Şurasının gündəliyinə daxil olmuşdur. Həmin vaxtdan bu günə kimi bu regional təşkilat çərçivəsində insan alverinə qarşı mübarizə sahəsində əhəmiyyətli normativ və təşkilati xarakterli tədbirlər həyata keçirilmişdir. Təşkilatın əsas orqanları olan Nazirlər Komitəsi və Parlament Assambleyası bu məsələ ilə bağlı bir sıra mühüm sənədlər qəbul etmişdir.

İnsan alveri ilə mübarizə sahəsində Avropa Şurasının ən mühüm sənədi 16 may 2005-ci ildə qəbul olunmuş (1 fevral 2008-ci ildə qüvvəyə minib) İnsan Alverinə qarşı mübarizə haqqında

Konvensiyasıdır (Azərbaycan 11 may 2010-cu ildə bu sənədi ratifikasiya edib) [4]. Burada Konvensiyanın məqsədləri: (maddə 1) a) gender bərabərliyini təmin etməklə insan alverinə qarşı mübarizə aparılması və onun qarşısının alınması;b) insan alveri qurbanlarının hüquqlarının qorunması, qurbanların və şahidlərin müdafiə edilməsi üzrə hərtərəfli çərçivənin işlənib hazırlanması, gender bərabərliyini təmin etməklə qurbanlara və şahidlərə kömək göstərilməsi, habelə səmərəli istintaqın və mühakimənin təmin edilməsi; c) insan alverinə qarşı mübarizəyə dair beynəlxalq əməkdaşlığın təşviq edilməsi məqsədilə bu Konvensiya ilə xüsusi nəzarət mexanizminin təsis olunması.

Konvensiyanın 3-cü maddəsində deyilir: Bu Konvensiyanın müddəalarını, xüsusilə insan alveri qurbanlarının hüquqlarının qorunmasını və təşviq edilməsini, cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər düşüncə, milli və ya sosial mənşə, milli azlıqlarla bağlılıq, mülkiyyət, mənşə və digər əlamətlərə görə heç bir ayrı-seçkiliyə yol vermədən təmin edirlər.Konvensiyanın 4-cü maddəsində qurbanın anlayışı aşağıdakı kimi verilir: e) "qurban" dedikdə bu maddədə anlayışı verilmiş insan alverinə məruz qalan istənilən fiziki şəxs başa düşülür. Konvensiyada insan alveri qurbanlarının müəyyənləşdirilməsi problemi ön plana çəkilmişdir; bununla bağlı iştirakçı dövlətlərin üzərinə bir sıra mühüm öhdəliklər qoyulmuşdur.

Konvensiyada insan alveri qurbanlarının müəyyən edilməsi (maddə 10) ilə əlaqədar xüsusi qeydlər öz əksini tapmışdır. Belə ki, hər bir Tərəf insan alverinin qarşısının alınması və onunla mübarizə, uşaqlar da daxil olmaqla insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi sahəsində müvafiq təlim keçmiş və ixtisaslaşmış şəxslərin öz səlahiyyətli orqanlarına təyin edilməsini təmin etməli, qadın və uşaq alveri qurbanlarının onların xüsusi vəziyyətini nəzərə alan prosedurla müəyyən edilməsi və lazım gəldikdə, onlara bu Konvensiyanın 14-cü maddəsinin müddəalarına əsasən ölkə ərazisində yaşayış icazəsi verilməsi üçün aidiyyəti orqanların bir-biri ilə və həmçinin əlaqədar yardımçı təşkilatlarla əməkdaşlıq etməsini təmin etməlidir.

Eyni zamanda,insan alveri qurbanlarına yardım (maddə 12) məsələləri də Konvensiyada geniş yer alıb. Xüsusi olaraq qeyd edilir ki, hər bir Tərəf insan alveri qurbanlarının fiziki, psixoloji və sosial vəziyyətinin bərpasına yardım etmək üçün zəruri olan qanunvericilik və digər tədbirləri həyata keçirməlidir. Bu yardım ən azı aşağıdakıları ehtiva etməlidir:müvafiq və təhlükəsiz mənzil təminatı, psixoloji və maddi dəstək, təcili tibbi müayinə imkanları; tərcümə xidmətləri (lazım olan hallarda); onların hüquqlarının və mənafelərinin cinayətkarların mühakiməsi prosesinin müvafiq mərhələlərində təmsil olunmasına və nəzərə alınmasına yardım;uşaqlar üçün təhsil imkanları;insan alveri qurbanının təhlükəsizlik və mühafizə ehtiyaclarını nəzərə almaq və s.

Bundan başqa, Konvensiyada xüsusi monitorinq mexanizminin yaradılması nəzərdə tutulmuşdur. Yəni İnsan alverinə qarşı fəaliyyət məsələləri üzrə ekspertlər qrupu yaradılması xüsusi olaraq vurğulanmışdır. Bu Konvensiyanın yerinə yetirilməsinə nəzarəti İnsan alverinə qarşı fəaliyyət məsələləri üzrə ekspertlər qrupu (GRETA) (maddə 36)həyata keçirir.

Sözü gedən sahədə indiyə qədər qəbul olunmuş digər beynəlxalq aktlardan fərqli olaraq, Avropa Şurasının Konvensiyasında əsas diqqət insan alveri qurbanlarının müdafiəsini və onların hüquqlarının qorunmasına yetirilmişdir. Konvensiyanın təsir dairəsi çox genişdir: Konvensiya milli və ya transmilli səviyyədə olmasından, eləcə də mütəşəkkil cinayətkarlıqla əlaqəli olub-olmamasından asılı olmayaraq, insan alverinin bütün formalarına şamil edilir.

Xüsusi qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında "İnsan Alverinə qarşi Mübarizə üzrə Milli Fəaliyyət Plani" təsdiq edilmişdir.İnsan alverinə qarşı mübarizənin həyata keçirilməsi üçün Milli

Fəaliyyət Planı bir-birini tamamlayan aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur: İnsan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin həyata keçirilməsi; qurbanlarla əlaqə, onlara yardım və onların təhlükəsizliyinin təmin edilməsi və reabilitasiyası və s. [3].

Beləliklə, qəbul olunmuş bu sənəddə insan alverinə qarşı mübarizənin bütün aspektlərini özündə birləşdirən və səmərəli surətdə əlaqələndirə bilən sistemin yaradılmasına xüsusi diqqət yetirilmiş, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində Milli Koordinator təyin edilmişdir. Milli Fəaliyyət Planı üzrə tədbirlərə müvafiq olaraq insan alveri ilə bağlı cinayətlərə qarşı mübarizəyə dair Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr nəzərə alınmaqla, bu sahədə milli qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi ilə əlaqədar ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, 2005-ci il iyunun 28-də insan alverinin profilaktikasının, insan alveri qurbanlarının müdafiə edilməsinin və onlara köməklik göstərilməsinin hüquqi və təşkilati əsaslarını tənzimləyən "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında insan alverinin profilaktikasının, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edir, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyir.

Bu Qanunun qəbul edilməsi həm də Azərbaycan Respublikası Cinayət Məcəlləsində insan alverinə qarşı mübarizə tədbirlərinə dair cinayət hüquq normalarının əlavə edilməsi zərurətini yaratmışdı. Buna görə də, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə İnsan alveri – 144-1-ci maddəsi ilə yanaşı, Məcburi əmək – 144-2 və İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma – 316-1-ci maddələr əlavə edilmişdir. Həmçinin 19 aprel 2013-cü il tarixli Qanunla "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" İnsan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlər – 144-3-cü maddə də cəza sisteminə daxil edilmişdir [2].

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının (19 aprel 2013-cü il № 609-IVQD) Qanununa əsasən 14-1-ci maddə (Bərpa və fikirləşmə müddəti) əlavə edilmişdir: İnsan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilir. Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanı təhlükəsizlik və müdafiə ehtiyaclarının təmin edilməsi, fiziki, psixoloji və sosial vəziyyətinin bərpası üçün bu Qanunun 12-ci maddəsində nəzərdə tutulmuş xüsusi müəssisələrin xidmətlərindən istifadə edə bilər.

Eyni zamanda sözü gedən qanuna əsasən aşağıdakı məzmunda 20.4-1-ci maddə də əlavə edilmişdir:İnsan alverinin qurbanı olmuş əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin repatriasiyası üzrə aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək və bu şəxslərin yenidən insan alverinin qurbanına çevrilməsinin qarşısını almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən insan alveri qurbanlarının repatriasiya qaydaları qəbul edilir. Bu qaydalar, həmçinin insan alverindən zərərçəkmiş uşaqların təhsil hüququndan faydalanma imkanlarının və onlara zəruri qayğının göstərilməsinin təmin olunması, ailələr və ya müvafiq qayğı göstərən qurumlar tərəfindən onların qəbul olunması ilə bağlı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Onu da qeyd edək ki, 2004-cü ildə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi nəzdində İnsan alverinə qarşı mübarizə İdarəsi təsis edilmiş, 2006-cı ildən

etibarən bu idarə nazirlik strukturunda müstəqil qurum kimi fəaliyyət göstərməyə başlamışdır.

İnsan alveri ilə bağlı cinayət hadisələri, cinayət törətmiş şəxslər, insan alverinin qurbanları barədə məlumatların toplanması, ümumiləşdirilməsi və təhlil edilməsi məqsədilə İnsan alverinə qarşı mübarizə İdarəsində mərkəzləşdirilmiş məlumat bazası yaradılmış, məlumatların məxfiliyi təmin edilmişdir.Həmçinin insan alverinə qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir:

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 9 noyabr 2005-ci il tarixli 203 nömrəli Qərara əsasən "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nı təsdiq etmişdir."İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən insan alveri qurbanlarının müdafiəsini təmin etmək məqsədilə xüsusi müəssisələr kimi onların müvəqqəti yaşaması üçün sığınacaqlar və insan alveri qurbanlarına yardım mərkəzləri yaradılmışdır[6].

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 203 nömrəli "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında" və 2006-cı il 6 mart tarixli 62 nömrəli "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" qərarına müvafiq olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeçiliyində dövlət vəsaiti hesabına saxlanılan, qeyri-kommersiya xüsusi müəssisəsi kimi İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi fəaliyyət göstərir.

"Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 6 may tarixli 208 nömrəli Sərəncamının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 1 fevral 2008-ci il tarixli qərara əsasən "İnsan alveri cinayət qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları" da təsdiq edilmişdir [7]. Bu Qaydalara əsasən, dövlət və qeyri-dövlət qurumları tərəfindən insan alveri cinayətinin qurbanı olmuş şəxslərin və ehtimal edilən qurbanların insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi mexanizmlərini tənzimləyir.

İnsan alveri cinayətinin qurbanlarını müəyyən edən qurumlar ilk növbədə onların təhlükəsizliyini, şəxsiyyətinin anonimliyini və barələrində əldə edilmiş məlumatların konfidensiallığını təmin edir.

Eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 mart 2006-cı il tarixli 62 nömrəli qərarı ilə "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları" təsdiq edilmişdir. Bu Qaydalar "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanına əsasən hazırlanmışdır və insan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi mexanizmini müəyyən edir.İnsan alveri qurbanlarının sosial reabilitasiyası onların cəmiyyətə reinteqrasiyası, normal həyat tərzinə qaytarılması məqsədilə həyata keçirilir və insan alveri qurbanlarına yaşından, cinsindən və tələbatlarından asılı olaraq hüquqi yardımın göstərilməsi, onların təhsilinin davam etdirilməsi, psixoloji reabilitasiya və psixoloji

korreksiyası, tibbi və peşə reabilitasiyası üçün tədbirlər görülməsi, həmin şəxslərin iş və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə edilməsini nəzərdə tutur [8].

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 iyun 2006-cı il 152 nömrəli Qərarı ilə İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə qərarı təsdiq edilmişdir.Qərara əsasən, insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə 700 manat məbləğində müavinət müəyyən edilmişdir [9].

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 yanvar 2006-cı il 8 nömrəli qərarına Əsasən"İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə" təsdiq edilmişdir. Bu Əsasnamə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 22.3-cü maddəsinə əsasən və "İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının 1.6-cı bəndinin icrası məqsədilə hazırlanmışdır və xüsusi yaradılmış İnsan alveri qurbanlarına kömək Fondunun fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.İnsan alveri qurbanlarına kömək FonduAzərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nəzdində yaradılır və fəaliyyət göstərir [10].Fond insan alveri qurbanlarının zəruri xərclərinin ödənilməsi işlərinin maliyyələşdirilməsini həyata keçirir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)"nın "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli qərarı ilə "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları" təsdiq edilmişdir. İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin əsas məqsədləri qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaların formalaşdırılmasıdır.

İnsan alveri qurbanlarının müdafiəsi üçün yaradılmış xüsusi müəssisələr qurbanların hüquqlarının müdafiəsini təmin edən vasitələrdən biridir. Xüsusi müəssisələr insan alveri qurbanlarına yardım mərkəzlərindən və insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqlardan ibarətdir. Yuxarıda göstərilən xüsusi müəssisələr "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 203 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"na uyğun olaraq fəaliyyət göstərirlər.

Qurbanların sosial reabilitasiyası həyata keçirilərkən Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş insan və vətəndaş hüquqlarının hər hansı formada məhdudlaşdırılması, yaxud onların iradəsinə zidd reabilitasiya tədbirlərinin tətbiq edilməsi yolverilməzdir [11].

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli, 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)"nın "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının həyata

keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli, 131 nömrəli qərarı ilə "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)" təsdiq edilmişdir [12].Bu Qaydalar əsasən şəxsin insan alverinin qurbanı olmasını təyin etməyə imkan verən mexanizmləri müəyyən edir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 609-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 7 may tarixli 887 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 sentyabr 2013-cü il tarixli 252 nömrəli Qərara ilə "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları" təsdiq edilmişdir [13]. Bu Qaydaların məqsədi insan alverinin qurbanı olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərinrepatriasiyası üzrə aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək və bu şəxslərin yenidən insan alverinin qurbanına çevrilməsinin qarşısını almaqdan ibarətdir.Qurbanların repatriasiyası ilə bağlı beynəlxalq əməkdaşlıq zamanı BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokol və Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyası rəhbər tutulur.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aidiyyəti orqanlarla razılaşdırılmış təklifini nəzərə alaraq "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram"ı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmişdir.Onu da vurğulayaq ki,insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramın həyata keçirilməsi ilə bağlı 2014-2016-cı illər üçün Tədbirlər Planı hazırlanmışdır: Təşkilati və qanunvericilik tədbirləri –İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə təkliflərin hazırlanması və s. Sosial, tibbi və digər tədbirlər – Uşaqların insan alverinin qurbanına çevrilməsi səbəblərinin araşdırılması və onların hüquqlarının yenidən pozulmasının qarşısının alınması məqsədi ilə müvafiq təhlükəsizlik və qabaqlayıcı tədbirlərin görülməsi (preventiv tədbirlər) [14] və s.

İnsan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət orqanlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədi ilə 24 iyul 2014-cü il tarixli 667 nömrəli Sərəncamla "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli, 667 saylı Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında "İnsan alverinə qarşı mübarizə üzrə 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda insan alveri qurbanlarının müdafiəsi aşağıdakı tədbirlər sistemi çərçivəsində öz əksini tapmışdır:

İnsan alverindən zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir və tətbiq olunan təhlükəsizlik tədbirləri təhlükə tam aradan qalxanadək davam etdirilir.

İnsan alveri qurbanlarının sosial reabilitasiyası, cəmiyyətə reinteqrasiyası onların normal həyat tərzinə qaytarılması məqsədi ilə həyata keçirilir və insan alveri qurbanlarına hüquqi yardım

göstərilməsi, onların təhsilinin davam etdirilməsi, psixoloji, tibbi və peşə reabilitasiyası üçün müvafiq tədbirlər görülməsi, həmin şəxslərin işlə və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə olunmasını nəzərdə tutur [15].

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli, 2173 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir."Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsini və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarını rəhbər tutmaqla, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin davamı olaraq tərtib edilmiş, insan alverinin insan hüquq və azadlıqlarına ciddi təhlükə yaratdığını, insan hüquqlarını pozduğunu, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olduğunu nəzərə alaraq, insan alverinə qarşı mübarizədə müvafiq qurumların qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemin təmin edilməsi üçün hazırlanmışdır [16].

